**Səyyarə Məmmədli,**
*İnformasiya-axtarış sistemləri ilə*
*iş şöbəsinin müdiri*

# AZƏRBAYCAN MİLLİ KİTABXANASINDA İNFORMASİYA-AXTARIŞ SİSTEMLƏRİ İLƏ İŞİN TƏŞKİLİ

***Xülasə:*** *Məqalədə şöbənin əsas vəzifə və funksiyaları, Baş əlifba, oxucu-xidmət və sistemli kataloq və onların təşkili haqqında qısa məlumat verilir.*

***Abstract:*** *The article provides brief information about the main tasks and functions of the department, the main alphabet, reader-service and systematic catalog and their organization.*

***Резюме:*** *В статье представлена информация об основных задачах и функциях отдела, кратко рассказывается об особенностях работы Генерального алфавитного каталога, читательского и системного каталогов.*

***Açar sözlər:*** *İnformasiya, kataloq, əlifba, axtarış sistemi.*

***Key words:*** *Information, directory, alphabet, search engine.*

***Ключевые слова:*** *Информация, каталог, алфавит, поисковые системы.*

Milli Kitabxananın İnformasiya-axtarış sistemləri ilə iş şöbəsi Kitabişləmə şöbəsi kimi 1923-cü ildə, kitabxana yarandığı gündən yaradılmışdır. Şöbə yarandığı gündən 1947-ci ilə kimi kompleklәşdirmə, ədəbiyyatın işlənməsi və kataloqların tərtibi məsələləri ilə kompleks şəkildə məşğul olmuşdur. 1941-ci ildən Kitabişləmə şöbəsinin əsasında 2 yeni şöbə - Kompleklәşdirmə, Kitabişləmə və kataloqlar şöbəsi təşkil olunmuşdur. 1950-ci ildən Kitabişləmə və kataloqlaşdırma şöbəsi sistemli oxucu kataloqunu təşkil etməyə başlamışdır. 1957-58-ci illərdə Ədəbiyyatın qrup halında işlənməsi bölməsi Kitabişləmə və kataloqlaşdırma şöbəsinin tərkibində yaradılmışdır.

1980-ci ildə şöbə tərkibində Ədəbiyyatın qrup halında işlənməsi bölməsi qalmaqla Elmi sistemləşdirmə və kitabişləmə kimi 2 şöbəyə ayrılmışdır.

Şöbənin əsas vəzifələrinə daxildir: kataloqların tərtibi: ədəbiyyata (Azərbaycan və rus dillərində) yazılmış kartoçkaların kataloqda öz əksini tapması; əlavə (ilkin və köhnə) ədəbiyyatın kataloqda işlənməsi və fonda təhvili; kataloqların elmi və texniki radaktəsi; oxucuya xidmət; akt əsasında məzmunca və fiziki cəhətdən köhnəlmiş ədəbiyyatın kataloqdan silinməsi.

Baş əlifba kataloqu daxili xidmət üçün nəzərdə tutulmuşdur. Burada Azərbaycan və rus dillərində olan bütün növ ədəbiyyatın kartoçkaları öz əksini

tapmışdır. Oxucu-əlifba kataloqu 1938-ci ildə yaradılıb və 1950-ci il də daxil olmaqla 1950-ci ildən sonrakı illəri əhatə edən ədəbiyyatın kartoçkalarını özündə əks etdirir.

Avtoreferatların əlifba kataloqu daxili xidmət kataloqudur və avtoreferatların 1974-cü ilin sonlarında, yəni avtoreferatların müntəzəm daxil olduğu vaxtdan təşkil olunmuşdur.

Yarandığı gündən "Kitabişləmə" adlanan şöbə sonralar daxili struktur dəyişiklikləri əsasında "Kitabişləmə və kataloqlaşdırma", "Kitabişləmə və baş əlifba kataloqu" adlandırılmışdır. İndi isə şöbə "İnformasiya-axtarış sistemləri ilə iş şöbəsi" adlanır. Adı vaxtaşırı dəyişsə də, şöbənin funksiyaları heç vaxt dəyişməmişdir. Yarandığı gündən indiyə kimi şöbə ənənəvi şəkildə fəaliyyət göstərir. Azərbaycan və rus dillərində müxtəlif növ ədəbiyyata yazılan kartoçkalar kataloqlara düzülür. Çap məhsullarının qeydiyyatı şöbəsindən qəbul edilən ədəbiyyatın əlavə nüsxələri ənənəvi yolla kataloqlarda qeyd olunaraq fonda təhvil verilir.

Şöbənin əsas funksiyalarından biri də Kolleksiyaların və informasiya resurslarının mühafizəsi şöbəsindən daxil olan məzmunca və fiziki cəhətdən köhnəlmiş ədəbiyyatın kartoçkalarının akt əsasında Baş əlifba və oxucu-əlifba kataloqundan çıxarılmasıdır. Bütün bu fəaliyyət növlərinin hər birinin əsasında yalnız və yalnız oxucuya keyfiyyətli xidmət məqsədi dayanır. Kitabxanaçı çalışır ki, oxucu sifariş etdiyi ədəbiyyata rədd cavabı almasın və onun sorğularını tam və dolğun əhatə edə bilsin.

Milli Kitabxananın iş fəaliyyəti zamanın tələbinə uyğun şəkildə təkmilləşsə də, elektron kataloq vasitəsilə oxucu sorğularına tez və operativ cavab verilsə də, ənənəvi kataloq öz əhəmiyyətini saxlamaqdadır. Şöbə baş əlifba, oxucu-əlifba və sistemli kataloqlardan ibarətdir. Oxucu-əlifba kataloqu və sistemli kataloq (elm sahələri üzrə düzülmüş kartoçkaların kataloqu) oxucuların tam ixtiyarındadır. Bu kataloqlarda 1950-ci il də daxil olmaqla 50-ci illərdən sonrakı ədəbiyyatın kartoçkaları öz əksini tapmışdır.

Baş əlifba kataloqu isə daxili xidmət kataloqudur. Oraya oxucu daxil ola bilməz və oxucuya yalnız növbətçi kitabxanaçı xidmət edir. Oxucu əlifba kataloqundan fərqli olaraq Baş əlifba kataloqunda 1950-ci illərə qədər və ondan sonrakı ədəbiyyatın kartoçkaları öz əksini tapır. Baş əlifba kataloqu Azərbaycan və rus dillərində olan avtoreferat, dissertasiya, arxiv ədəbiyyatı, not-musiqi ədəbiyyatı, izomateriallar, şəxsi kolleksiyalar, xəritələr, elektron resurslar və s. kartoçkaları tam şəkildə özündə əks etdirir. Buna görə də həm oxucular, həm də əlaqədar şöbələrin əməkdaşları Baş əlifba kataloqunun vasitəsilə öz sorğularına cavab tapa, yararlana bilirlər.

Rus fondunda olan ədəbiyyatın elektron kataloqa keçirilməsi işi hələ davam etdiyindən cari sorğular üçün də Baş əlifba kataloquna müraciət edilir. Ənənəvi kataloqun müsbət xüsusiyyətlərindən biri də odur ki, elektron kataloqda bəzən texniki nasazlıqlar olanda ənənəvi kataloq köməyə çatır. Beləliklə, ənənəvi kataloq elektron kataloq ilə paralel fəaliyyət göstərir.

Şöbəyə bir ildə ümumilikdə 45000-50000 arası kartoçka daxil olur ki, bu da növünə görə (kitab, avtoreferat, dissertasiya, izomaterial və s.) əlifba və sistemli kataloqlara düzülür.

Kataloqda qeyd olunan ədəbiyyat isə (Azərbaycan və rus dillərində) il ərzində orta hesabla 7000-10000 nüsxə təşkil edir.

Baş əlifba kataloqunda oxucuya xidmətin yüksək səviyyədə təşkilinə həmişə diqqət yetirilir və bu, şənbə və bazar günləri də daxil olmaqla növbətçilik əsasında həyata keçirilir.

1923-cü ildən, kitabxananın əsası qoyulduğu ildən yaradılan şöbə 100 ildir ki, öz əhəmiyyətini saxlayır və oxucularına nümunəvi xidmət göstərir.

## ƏDƏBİYYAT

**1.** Azərbaycan Milli Kitabxanasının 2013-2022-ci il üçün hesabatları.

**2.** Tahirov, K. Dünya milli kitabxanaları: M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası. (dərs vəsaiti) /K.M.Tahirov; elmi red. A.Xələfov; rəyçi. K.Aslan, P.Kazımi; Azərb. Resp. Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti.- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2013.- 212 s.

**3.** Tahirov, K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi (1923–2008-ci illər)/Kərim Tahirov; elmi red. A.Xələfov; ixtisas red. A.Əliyeva-Kəngərli; red. N.İsmayılov, K.Aslan.- Bakı: Ulu, 2008.- 218 s.